http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 05 (1602) 14 mart 2015 - ci il Qiyməti 40 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev AŞPA-nın siyasi işlər və demokratiya komitəsinin məruzəçisini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Avropa Şurası Parlament Assambleyasının siyasi işlər və demokratiya komitəsinin məruzəçisi Robert Uolteri qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və münaqişənin nizama salınması perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## BU SAYIMIZDA



## YENİ RAZILAŞMALAR ƏLDƏ EDİLİB

2



## Azərbaycan və Pakistanın Tibb Universitetləri arasında saziş imzalandı

Azərbaycan Tibb Universitetinin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev kollektivin bir qrup qadın üzvi ilə görüşüb. S.Əliyev ATU-nun xanım əməkdaşlarını və tələbə qızları **Beynəlxalq Qadınlar Günü** münasibətilə universitet rəhbərliyi, şəxsən akademik Əhliman Əmiraslanovun adından təbrik edib. Sabir Əliyev ATU-nun qadın üzvlərinə cansağlığı, hər kəs üçün önəmli olan ailə səadəti arzulayıb:

*"Qadınlarımız ildə bir dəfə yox, ömür boyunca diqqət və qayğıya layiqdirlər. Mən də sizə həmişə diqqətlə əhatə olunmağı, özünüzlə və övladlarınızla bağlı bütün arzularınızın həyata keçməsini diləyirəm!"*




## Azərbaycan Tibb Universitetində Dünya Böyrək Günü qeyd edilib

3



*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin professor-müəllim heyətini, bütün əməkdaşlarını və tələbələrini **Novruz Bayramı** münasibətilə səmimi qəlbdən təbrik edir, onların hər birinə möhkəm cansağlığı, firavan həyat, bol-bol sevinc arzulayırlar!*

# YENİ RAZILAŞMALAR ƏLDƏ EDİLİB

**◆ Martın 2-də Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov Qazi Universitetinin rektoru, professor Süleyman Büyükberberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Görüş zamanı Ə.Əmiraslanov qonaqlara son illər universitetdə görülən işlər, açılan yeni klinikaların fəaliyyəti haqqında ətraflı məlumat verərək Universitetin Stomatoloji, Onkoloji, Tədris-terapevtik və Tədris-cərrahiyyə klinikalarının hər birində ən müasir tibbi avadanlıqların quraşdırıldığını vurğulayıb. Dünyanın aparıcı şirkətlərinin istehsalı olan bu cihazların müayinə və müalicə işini ən yüksək səviyyədə həyata keçirməyə tam imkan verdiyini diqqətə çatdıran rektor klinika üçün yaxın gələcəkdə bir sıra yeni avadanlıqların alınmasının planlaşdırıldığını da bildirib.



Akademik Ə.Əmiraslanov onu da qeyd edib ki, Qazi Universiteti ilə münasibətlərin tarixi 20 ildən artıq müddətə dayanır: “Artıq bu universiteti özümüzə doğma sayırıq. Bir neçə dəfə birlikdə telekörpü təşkil etmişik. Rezidentlərimiz mübadilə proqramları çərçivəsində Qazi Universitetində rotasiya keçirlər. Bu əlaqələri daha da genişləndirmək, Qazi Universitetinə daha çox rezident göndərmək niyyətindəyik”.

Öz növbəsində Süleyman Büyükberber də Qazi Universitetinin nəzdində yeni xəstəxana tikildiyini, bu səhiyyə ocağının Avropanın ən böyük təcili yardım xidməti olacağını söyləyib. Onun sözlərinə görə, hazırda 80 min tələbəsi olan Qazi Universitetinin xəstəxanasında azərbaycanlı assistentlər də işləyir: “Ümumi cərrahiyyədə işləyən azərbaycanlı rezidentlərdən çox razıyıq. Biz Azərbaycan Tibb Universitetindən daha çox rezidentin, həkimlərin Türkiyəyə gəlməsini istəyirik”.

Daha sonra Türkiyəyə göndərilən rezidentlərin sayının artırılması ilə bağlı müzakirələr zamanı qərara alınıb ki, həm Mövlanə Mübadilə Proqramı, həm də universitetlərarası saziş əsasında Qazi Universitetinə göndərilən rezidentlərin, assistentlərin sayı artırılsın.

Bundan əlavə, hər iki universitet arasında proqramların uyğunlaşdırılması məsələsi ilə bağlı ilkin müzakirələr aparılıb. Bunun sayəsində gələcəkdə bu iki təhsil ocağının tələbələrinin hər iki universitetdə təhsil alması, hər iki yerdən diplom alması mümkün olacaq.

Qeyd edək ki, Azərbaycan Tibb Universiteti və Qazi Universiteti arasındakı əməkdaşlıq müqaviləsi akademik heyətdə çalışan əməkdaşların və tələbələrin mübadiləsi, müştərək konfranslar, seminarlar, müxtəlif tədbirlərin təşkili və digər sahələrdə qarşılıqlı fəaliyyətə dair məsələləri özündə əks etdirir.

Görüşdə ATU-nun tədris işləri üzrə prorektoru Sabir Əliyev, elmi işlər üzrə prorektor İbrahim İsayev, beynəlxalq əlaqələr üzrə prorektor Rəhimə Qabulova, tədris hissəsinin müdiri Nəsimi Qasımov, beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov iştirak ediblər.

Görüşdən sonra qonaqlar ATU-nun Tədris Cərrahiyyə Klinikasındakı şəraitlə də tanış olublar.

**Arif MƏMMƏDLİ**

**◆ Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkilil, akademik Əhliman Əmiraslanov Pakistan Prezidenti cənab Məmnun Hüseynlə Azərbaycana gəlmiş nümayəndə heyətinin üzvü, Pakistanın Şəhid Zülfüqar Əli Bhutto adına Tibb Universitetinin prorektoru, Pakistan Tibb Elmləri İnstitutunun Klinikasının müdiri, professor Cavid Əkrəmi qəbul edib.**

# Azərbaycan və Pakistanın Tibb Universitetləri arasında saziş imzalandı



Görüş zamanı Ə.Əmiraslanov uzun illər boyu Azərbaycan və Pakistan xalqlarının sülh, əməkdaşlıq və dostluq şəraitində yaşadığını qeyd edib. Onun sözlərinə görə, bu gün ölkələrimiz müstəqil dövlət kimi hər bir sahədə, o cümlədən tibb və təhsil sahəsində də əməkdaşlıq edirlər: *“Bu səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər, imzalanan sənədlər də bunu sübut edir ki, iki qardaş ölkə arasındakı əlaqələrimiz günbəgün genişlənməkdədir. Biz Pakistan dövlətini özümüzə qardaş ölkə hesab edirik. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir”.*



Ə.Əmiraslanov bütün sahələrdə tibb təhsili ilə bağlı Azərbaycanın Pakistanla əlaqələrini daha da genişləndirmək niyyətində olduqlarını açıqlayıb: “Bilirik ki, Pakistan əczaçılıq sahəsində xüsusi uğurları var. Gələcəkdə əlaqələri dərinləşdirsək, hər iki ölkə səhiyyə sahəsindəki uğurlardan bəhrələnə bilər”.

Daha sonra akademik Ə.Əmiraslanov Azərbaycan Tibb Universiteti haqqında qısa məlumatı qonaqların diqqətinə çatdırdı. Qeyd olundu ki, ATU Azərbaycanda tibb və əczaçılıq təhsili verən yeganə müəssisədir ki, burada 160-dan çox professor çalışır. 1930-cu ildən müstəqil universitet kimi fəaliyyətdə olan Tibb Universitetinin hazırda 8000-ə yaxın tələbə və rezidenti var. Universitetdə təhsil alan 1000-dən çox xarici tələbə arasında Pakistandan olan gənclər də var: “Gələcəkdə bu tələbələrin sayı artsa, buna yalnız sevinə bilərik”. Rektor həmçinin ATU-nun nəzdindəki klinikalar barədə məlumat verərək bildirdi ki, bu klinikalar əhaliyə yüksək ixtisaslı tibbi xidmət göstərməklə yanaşı, həm də tədris müəssisəsi kimi fəaliyyətdədir.

Sonra qonaq Cavid Əkrəm də öz növbəsində ATU-nun rektoruna təşəkkür etdi. O, ölkələrimiz arasında siyasi əlaqələrlə yanaşı, tibb və səhiyyə sahəsində də əlaqələrin çox yüksək səviyyədə olduğundan məmnunluğunu bildirdi. Cənab Əkrəm prorektoru olduğu Tibb Universitetinin 1 ildir yaradıldığını və bu ali təhsil müəssisəsinin rektorunun Pakistanın Prezidenti olduğunu da vurğuladı. Onun sözlərinə görə, universitetin nəzdində tibb kolleci, həm də Tibb Elmləri Klinikası fəaliyyət göstərir: “Çox yaxşıdır ki, bizim təmsil etdiyimiz universitetlər yalnız tibb təhsili verir. Dünyada belə ali təhsil müəssisələrinin sayı azdır”. Prorektor Cavad Əkrəm ATU-nun mütəxəssisləri ilə birlikdə müştərək təşkilat yaratmaq arzusunda olduqlarını, həm müalicə, həm də akademik tibb sahəsində qarşılıqlı əlaqələr qurmağı, azərbaycanlı alimlərin məqalələrinin Pakistanın elmi jurnallarında dərcinin təşkil olunması istəyində olduqlarını bildirdi.

Görüşdə ATU-nun tədris işləri üzrə prorektoru Sabir Əliyev, Tədris Terapevtik Klinikanın direktoru Surxay Musayev, Stomatologiya Klinikasının direktoru Alqış Səfərov, Tədris Cərrahiyyə Klinikasının direktoru Hacıqulu Bağırov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov da iştirak ediblər.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti ilə Pakistanın Şəhid Zülfüqar Əli Bhutto adına Tibb Universiteti arasında qarşılıqlı əməkdaşlığa dair saziş imzalandı. Saziş universitetlər arasında əməkdaşlığın bütün istiqamətlərini əhatə edir və tibb təhsili sahəsində münasibətlərin inkişafına xidmət edir. Bu sənəd həmçinin iki ali təhsil müəssisəsi arasında birgə rezident və mütəxəssis mübadiləsinin təşkilini nəzərdə tutur.

Görüşdən sonra Pakistandan gələn nümayəndə heyəti ATU-nun klinikalarında yaradılan şəraitlə tanış olublar.

**ATU-nun mətbuat xidməti**

**Fotolar Cənnətalı Çingizindir**

# Azərbaycan Tibb Universitetində Dünya Böyrək Günü qeyd edilib

**Martın 12-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Dünya Böyrək Gününə həsr olunmuş elmi-praktiki konfrans keçirilib. Tədbirdə respublikamızın dializ mərkəzlərinin, həmçinin özəl dializ mərkəzlərinin həkimləri, Mərkəzi Neftçilər Xəstəxanasının hemodializ və böyrəkköçürmə şöbəsinin əməkdaşları iştirak ediblər.**



ATU-nun Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev bildirib ki, ənənəvi keçirilən konfransın məqsədi əsas diqqəti böyrək patologiyasına, böyrək xəstəsi olan insanlara yönəltməkdir: *"Artıq 10-cu dəfədir ki, belə bir tədbir keçirilir. Azərbaycan hökuməti bu məsələni həmişə diqqət mərkəzində saxlayır. 2010-cu il noyabrın 26-da Nazirlər Kabinetinin sərəncamı ilə 2011-2015-ci illərdə xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramı təsdiqlənib".*

Onun sözlərinə görə, Azərbaycanda böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin sayı hər il artır: "Hər il dializ xəstələrinin sayında orta hesabla 20-25 faiz artım qeydə alınır. Bunu nəzərə alan Azərbaycan hökuməti tərəfindən ölkədə belə xəstələrin müalicəsi üçün dializ mərkəzləri yaradılır. Çünki bu xəstəlikdən əziyyət çəkən xəstələrin öz hesablarına uzun müddət dializ qəbul etməsi çətin məsələdir. Bu səbəbdən Azərbaycan Tibb Universitetində də bu məsələyə ciddi diqqət yetirilir".

S.Musayev qeyd edib ki, hazırda ATU-nun Tədris Terapevtik Klinikasında Nefrologiya şöbəsi fəaliyyət göstərir: "Klinikanın bütün çarpayıları işləyir, xəstələri növbə ilə qəbul edirik. Bir klinika rəhbəri kimi bu hal məni razı salmalıdır. Amma bir həkim, bir insan kimi əhalinin belə xəstə olması məni çox narahat edir. Amma xəstələr varsa, onların müalicəsi üçün belə mərkəzlər yaratmalıyıq".

Sonra akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının hemodializ şöbəsinin müdiri Fariz Babayev "Azərbaycanda böyrək əvəzedici terapiyanın 2014-cü il registri" mövzusunda məruzə ilə çıxış edib. Onun sözlərinə görə, Azərbaycanda bu günə qədər müalicə olunan 2 635 dializ xəstəsinin 356 nəfərində Hepatit C, 152 nəfərində Hepatit B, 49 nəfərində isə mix-infeksiya (HBV+HCV) aşkar olunub.

Həkim bildirir ki, hemodializ müalicəsi qəbul edən xəstələr müxtəlif instrumental, invaziv müdaxilələrə məruz qaldığından, onlar daha tez hepatit virusuna yoluxurlar.

Xəstəliyin sıxlığına gəlincə, hazırda Azərbaycanda bir milyon əhaliyə 450-550 böyrək çatışmazlığından əziyyət çəkən xəstə düşür. Onlardan da təxminən 255-270 nəfəri hemodializ müalicəsinə cəlb olunur. Onun sözlərinə görə, ən yüksək xəstə sıxlığı Gəncə, Şəmkir, Mingəçevir və Bərdə zonasında müşahidə olunur:

"Həmin ərazilərdə bir milyon əhaliyə təxminən 253 xəstə düşür. Bu göstərici regionlarda xəstəliyin daha çox yayılması deyil, əksinə, həmin bölgələrdə insanların sayının daha çox olması ilə bağlıdır".



Son illər ərzində Bakıda və regionlarda 26 yeni dializ mərkəzinin istifadəyə verildiyini deyən şöbə müdiri vurğulayıb ki, bu il daha 3 yeni dializ şöbəsinin açılması planlaşdırılır: "Bu gün respublikada 486 dializ aparatı fəaliyyət göstərir və hər bir aparat 3 növbəli iş rejimində 6 xəstəyə xidmət edir. Ötən il ərzində 352 416 hemodializ seansı aparılıb. Onlardan da 155 037-si Bakıda, 197 379 seansı isə bölgələrdə həyata keçirilib".

Şöbə müdiri qeyd edib ki, 2010-cu ildən etibarən Azərbaycanda böyrək köçürmə əməliyyatları bərpa olunub. Və bu günə qədər canlı donordan 197 böyrək transplantasiyası əməliyyatı aparılıb: "2014-cü ildə isə 68 belə əməliyyat həyata keçirilib. Bu gün respublikada 561 böyrək köçürülən xəstə dispanser qeydiyyatındadır".

Daha sonra Səhiyyə Nazirliyinin Baş nefroloqu Mehman Ağayev, ASHTİ-nin nefrologiya kafedrasının müdiri Fuad Sərdarlı və digər mütəxəssislər çıxış ediblər. Tədbirdə "Hemodializ və hemodiafiltrasiya tətbiqinin əsas xüsusiyyətləri", ""FSQS kompleks müalicəsində plazmaferezin tətbiqi", "BXX xəstələrində virus hepatitləri", "Sidik yollarının infeksiyasının müalicəsində Selvirinin tətbiqi", "Xroniki böyrək çatışmazlığının kəskinləşməsində hemodializin tətbiqi" və s. mövzular ətrafında müzakirələr aparılıb.

**Günel ASLANOVA**

# Qərb bölgəsinin pediatrları Gəncədə

**Gəncə Pediatrlar Cəmiyyəti "Tibbin müasir aspektləri" mövzüsünda elmi-praktik konfrans keçirmişdir. Bu barədə məlumatı Gəncə Şəhər Səhiyyə İdarəsinin mətbuat xidməti yayıb. Verilən məlumata görə, tədbirdə qərb bölgəsinin şəhər və rayonlarından 100-ə yaxın həkim- pediatr və terapevt iştirak edib.**



Tədbiri giriş sözü ilə Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisi, tibb elmləri doktoru, professor Əlikram Məmmədov açmışdır. Qeyd etmişdir ki, bu gün Azərbaycanda səhiyyənin inkişafı, insanlarımızın sağlamlığına göstərilən diqqət və qayğı ölkə başçısı cənab İlham Əliyevin gərgin zəhmətinin nəticəsidir. Belə vacib və təbabətin aktual problemlərinin həllinə həsr olunmuş elmi-praktik konfransın Gəncədə təşkilində göstərdiyi dəstəyə görə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə minnətdarlığını bildirən professor Ə.Məmmədov qonaqlara və konfrans iştirakçılarına müvəffəqiyyətlər arzulamışdır.

Şəhərin "Ramada Plaza" otelində təşkil olunan konfransda Azərbaycan Tibb Universitetinin uşaq xəstəliklərinin proredevtikası kafedrasının müdiri, tibb elmləri doktoru, professor İbrahim İsayev və Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun kardioloqu, tibb elmləri namizədi Rafiq Yusifli çıxışlar etmişlər. Professor İbrahim İsayev "Kəskin revmatik qızdırma:klinika, diaqnostika, müalicəsinə dair müasir yanaşmalar" mövzusunda mühazirə ilə çıxış etikdən sonra yerli həkimlərin suallarını cavablandırmışdır. Tibb elmləri namizədi Rafiq Yusifli isə "Xroniki ürək çatışmazlığı və arterial hipertoniyanın müalicəsində aldosteron antaqonistlərin istifadəsinə müasir baxış" mövzusunda mühazirə söylədikdən sonra birgə fikir mübadiləsi aparılmışdır.

Sonra Gəncə Pediatrlar Cəmiyyətinin sədri Asif Məmmədov "Respirator distress sindrom" mövzusunda çıxış etmiş və ümumi diskussiya aparılmışdır.

Tədbirin sonunda professor Əlikram Məmmədov konfransın təşkilində göstərdiyi dəstəyə görə WORLD MEDICINE şirkətinin rəhbərliyinə, professor İbrahim İsayevə və tibb elmləri namizədi Rafiq Yusifliyə minnətdarlığını bildirmiş və belə tədbirlərin davamlı olacağına ümid etdiyini söyləmişdir.

**Hamlet QASIMOV,**
*"Xalq qəzeti"nin bölgə müxbiri*

# ATU-nun həkimləri 8-ci «Uludağ Dermotokosmetoloji Günləri»ndə iştirak ediblər

**Azərbaycan Tibb Universitetinin (ATU) həkimləri Uludağda keçirilən 8-ci "Uludağ Dermotokosmetoloji Günləri"ndə iştirak ediblər.**

Dermotokosmetoloji Dərnəyi və Uludağ Universiteti Tibb fakültəsinin dəri-zövrəvi xəstəliklər kafedrasının birgə təşkilatçılığı ilə baş tutan simpozium 4 gün davam edib. Simpozium çərçivəsində keçirilən dəriyə qulluqla bağlı kurslara (gözaltı, üz, saç mezoterapiyası, üz pilinqi, piftinq və s.) ATU-nun dermatovenerologiya kafedrasının dosenti Elşad Novruzov və həmin kafedranın assisenti Maqsud Agazadə də qatılıblar. Onlar təşkilatçılar tərəfindən sertifikatla mükafatlandırılıblar.



# Tədris Terapevtik Klinikanın Tibbi Şurasının yığıncağı keçirilib

**Martın 5 –də ATU- nun Tədris Terapevtik Klinikasının Tibbi Şurasının yığıncağı keçirildi. Yığıncağın gündəliyində duran məsələləri diqqətə çardıran klinikanın direktoru, ə.e.x. professor Surxay Musayev ay ərzində klinikada aparılan müalicə diaqnostik işlər haqqında məruzə etmək üçün sözü klinikanın baş həkimi, dosent Ramin Bayramlıya verdi.**

Baş həkim fevral ayı ərzində klinikada aparılan bir sıra yenidənqurma işləri və bir ay müddətində kilinikanın müraciət edən və çıxan xəstələrin ümumi statistikası haqqında ətraflı məlumat verdi. O, məruzəsində bildirdi ki, ötən illə müqayisədə , bu ay klinikaya müraciət edənlərin sayında nəzərə çarpacaq dərəcədə (13 % ) artım qeydə alınmışdır. Belə ki, klinika üzrə stasionar müalicə almaq üçün 574 xəstə daxil olub, 559 xəstə isə çıxıb. Martın 5 -nə olan məlumata görə, klinika üzrə stasionar və gündüz həftəlik daxil olma və çıxma ümumilikdə 201 nəfər təşkil edib.

Toplantıda qeyd olundu ki, klinikada ay ərzində bir sıra yeniliklər də olub. Əvvəllər çox darısqal olan qəbul şöbəsi (təcili yardım) tamamilə yenilənərək daha müasir bir vəziyyətə gətirilmişdir. İndi burada eyni vaxtda üç xəstəni rahat şəraitdə qəbul etmək mümkündür. Bundan başqa klinikada fevral ayında ayrıca uşaq reanimasiyası bölməsi də yenidən qurulmuş, fəaliyyəti gücləndirilmişdir.





Hesabat ayı ərzində klinikada keçirilən tədbirlər haqqında da toplantı iştirakçılarına məlumat verən natiq vurğuladı ki, fevralın 13- də klinikamızda “Autoimmun xəstəliklərin laborator diaqnostikası” mövzusunda elmi-praktik seminar keçirilmişdir ki, burada da universitet əməkdaşları ilə birgə respublikamızın digər müalicə müəssisələrində çalışan mütəxəssislər də qatılmışdır. Bundan başqa fevralın 25 –də klinikanın konfrans zalında xalqımızın qan yaddaşı olan Xocalı soyqrmının 23 –cü ildönümü ilə əlaqədar böyük anım mərasimi keçirilmişdir. Universitet rəhbərliyinin və tibb ictimaiyyətinin iştirak etdiyi toplantıda erməni qəsbkarlarının millətimizin başına gətirdiyi faciələr bir daha qeyd olunmuşdur.

Sonra klinikanın baş tibb bacısı Zərgül Qasımova “Tibb bacıları məktəbi” nin 2014-2015- cı tədris ilində göstərdiyi fəaliyyəti haqqında məruzə ilə çıxış etmişdir.

Çıxışlarda səslənən fikirlərə münasibətini bildirən klinikanın direktoru , professor Surxay Musayev son vaxtlar klinikada aparılan bir sıra yeniliklər, şöbələrdə yaradılan maksimum şərait, mütərəqqi üsullar, alınan yeni avadanlıqlar və onlardan istifadə qaydaları barədə ətraflı söhbət açdı, görüləcək cari məsələlər haqqında toplantı iştirakçılarına məlumat verdi. Professor S. Musayev əldə olunan bu nailliyyətlərin qazanılmasında universitetimizin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun diqqət və qayğısından bəhs etdi.

O, çıxışının sonunda klinikada çalışan bütün qadın əməkdaşları qarşıdan gələn Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etdi, onların hər birinə rəhbərlik adından ailə səadəti və işlərində yeni- yeni müvəffəqiyyətlər arzuladı.

**MƏNSUR**

## 1 MART ÜMUMDÜNYA MÜDAFİƏ GÜNÜDÜR

# MÜLKİ MÜDAFİƏ MƏŞQİNİN NƏTİCƏLƏRİ ARAŞDIRILMIŞDIR

◆ **Professor-müəllim, köməkçi və tələbə heyətinin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və insanların bu sahədə xəbərdar və təlimatlı olmasında səmərəliliyin artırılması məqsədi ilə 11 mart 2015-ci ildə universitetimizin rəhbər heyətinin Mülki Müdafiə Məşqi keçirilmişdir.**

Universitetin İnzibati binasında reallaşan tədbir hörmətli rektorumuz–obyektin Mülki Müdafiə rəhbəri, akademik Əhliman Əmiraslanovun göstəriş və tövsiyələrinə əsasən universitetin Mülki Müdafiə Qərargah rəisi Firdovsi Məmmədov tərəfindən hazırlanmışdır.



Tədbirə universitetin Rəhbər heyəti–prorektorlar, fakültə dekanları, Fövqəlade Hallar Komissiyasının sədri və üzvləri, MM Qərargah üzvləri və Hərbiləşdirilməmiş MM qüvvələrinin komandir–rəis heyəti cəlb olunmuşdur.





Məşqə rəhbərliyi obyekt MM rəhbərinin I müavini, tədris işləri üzrə prorektor Sabir Əliyev etmişdir.

Məşqin mövzusu “Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili” olmuşdur.

Rəhbər heyətin MM məşqi “Plana əsasən” 11.03.2015-ci ildə saat 09:00-da başlamış və 17:00-da bitmişdir.

Tədbirin keçirilmə vaxtı iş xəritəsinə uyğun olaraq, “şərti” baş vermiş zəlzələ nəticəsində inzibati binada “dağıntı” və “yanğın”, 2 saylı tədris binasında “partlayiş-yanğın” hadisələri baş vermiş, xəsarət alanlar olmuşdur.

Mühəndis kəşfiyyat manqası hadisələri qiymətləndirmiş və xilasedicilər xəsarət alanları şərti tibb məntəqəsinə çatdırmışlar. Şərti «yanğınlar» öz qüvvəmizlə söndürülmüşdür. Qəza–bərpa dəstəsi «dağıntı və yanğınlar»ın nəticələrinin aradan qaldırılmasına başlamışdır.

Məşqin nəticələri araşdırılaraq bildirilmişdir ki, iştirakçıların fəaliyyətini qənaətbəxş qiymətləndirmək olar.

**«TƏBİB»**

# MÜLKİ MÜDAFİƏ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLMİŞDİR

◆ **Hər il olduğu kimi fevralın 27-də Mülki Müdafiə gününə həsr olunmuş tədbir keçirilmişdir.**

Bu il növbəti dəfə keçilən **1 mart – Ümumdünya Mülki Müdafiə Gününün** mövzusu «Radiasiya və kimyəvi qəzalar zamanı mühafizə» seçilmişdir.

Tədbir iştirakçıları ilk öncə Xocalı soyqırımı qurbanlarının xatirəsini 1 dəqiqəlik sükutla andılar.

Sonra MMTX təşkili kursunun müdiri – hərbiləşdirilmiş MM qüvvələrinin ümumi komandiri Aqil Musayev çıxış edərək “1 mart – Ümumdünya Mülki Müdafiə Günüdür”, “Radiasiya və kimyəvi qəzalar zamanı mühafizə” mövzusunda məruzə etmişdir. Məruzəçinin çıxışında Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi və fəaliyyəti istiqamətləri, 1 mart–Ümumdünya Mülki Müdafiə Günü və onun qeyd edilməsinin məqsədi, Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzvlüyü, Azərbaycan Respublikasının Mülki Müdafiə sistemi, eləcə də mülki müdafiə təbliğatı və əhalinin fəlakət riskinin qarşısının alınmasına necə hazırlanması barədə ətraflı məlumat verilmişdir.



BMT-nin Baş Məçlisinin qərarı ilə 1972-ci ildən etibarən hər il 1 Mart bütün ölkələrdə Ümumdünya Mülki Müdafiə günü kimi qeyd olunduğu diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, Ulu öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra onun təşəbbüsü ilə 1993-cü ilin oktyabr ayından Azərbaycan Respublikası Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvlüyünə qəbul olunmuş və onun keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir. Bu sahədə dövlətin siyasətini Fövqəladə Hallar Nazirliyi layiqincə həyata keçirir. Müasir dövrümüzdə radiasiya və kimyəvi qəzalar zamanı insanların və ətraf mühitin mühafizəsi olduqca zəruridir.

**Qabil**

# İdmanın gənclərin həyatında rolu və onun mahiyyəti

*Zakir Ələkbər oğlu Məmmədov SSRİ idman ustası, Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, güləş üzrə Beynəlxalq dərəcəli hakim, professor, İdman sahəsinə aid 37 məqalə və dərs vəsaitinin müəllifidir.*

*FİLA-nın Avropa, Dünya və Beynəlxalq yarışların hakimi, 3 il Moskvada Yunan-Roma güləşi üzrə SSRİ-nin gənclərdən ibarət yığma kamandasının məşqçisi olub (Dinamolar arasında). Tələbələri gənclər arasında SSRİ, Dünya, Avropa və Beynəlxalq yarışların qalibi və mükafatçıları olublar. Onların arasında hazırladığı idman internat məktəbininin idmançıları da vardır. Bir çox yüksək dərəcəli idman mütəxəssislərini də hazırlamışdır.*



**Artıq dünya Azərbaycan Respublikasını idman dövləti kimi tanıyır. Buna möhtərəm Prezidentimiz İlham Əliyevin idmanımıza və idmançılarımıza göstərdiyi qayğı nəticəsində nail olunub. Beynəlxalq miqyaslı idman tədbirlərinin ölkəmizdə keçirilməsi və ilk Avropa Oyunlarının Bakıya həvalə edilməsi Azərbaycanın beynəlxalq nüfuzuna əyani sübutdur.**

Azərbaycan Tibb Universitetinin professoru olmaqla bərabər, uzun illər boyu ömrünü idmana və idmanın tədrisinə həsr edən bir pedaqoq kimi bu hal bizi çox sevindirir. Ölkəmizin idman həyatında baş verən hadisələri daim izləyirik və qazanılan uğurlara görə qəlbimiz qürurla döyünür. Eyni zamanda, çoxillik təcrübəyə əsaslanaraq fikirlərimizi də bölüşmək istəyirik.

Bu gün həyatımızın və məişətimizin bütün sahələrində sürətli bir inkişaf gedir. Yeni-yeni istehsal müəssisələri açılır, geniş miqyaslı inşaat işləri aparılır. Vətənimizin gələcəyini təmin etmək üçün elmin və texnikanın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Gələcəyimizin təminatçısı olan gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam, bilikli, iradəli, vətənpərvər və cəsur yetişməsinə önəm verilir. Bu məqsədlə ali ixtisas məktəbləri, universitetlər açılır, həm ölkəmizin paytaxtında, həm də bölgələrdə müasir tipli idman kompleksləri tikilir.

Azərbaycanda gənclərə göstərilən dövlət qayğısı ilə bərabər, onların fiziki inkişafının diqqətdə saxlanılması danılmaz bir faktdır. Ulu öndərimiz Heydər Əliyev gənclərin ictimai və siyasi həyatda fəal iştirakını təmin etmək üçün 1997–cı ildə Gənclər Forumunu yaratdı. Ulu öndərimiz Milli Olimpiya Komitəsinin 10 illik yubleyi mərasimində Gənclər və İdman, eləcə də Təhsil Nazirliyinə, məşğələ saatlarının sayının artırılmasını tövsiyə etdi. Heydər Əliyev gənclərin fiziki inkişafını daha da artırmağın səmərəli yollarını axtarıb tapmaq, idmanın inkişafına nail olmaq üçün bu işi məqsədəuyğun sayır və əlindən gələni əsirgəmirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin idmana olan marağı gənclərimizə örnək olmalıdır. Ölkə başçısının “Sağlam və güclü gəncləri olan ölkə hər şeyə qadirdir” ifadəsi bu gün gənc nəslimizin şüarına çevrilməlidir.

Gənclərin fiziki hazırlığı kimi, ideoloji hazırlığı da yüksək səviyyədə həyata keçirilir. Bu gün orduya çağırılan gənclərin fiziki cəhətdən hazırlıqlı olmaması ölkə üçün təhlükəli ola bilər. Fiziki hazırlığı möhkəm olan gənclər hərbi xidmətə yollanarkən çətinliklərdən qoxmurlar. Ümumiyyətlə, gənclərin fiziki hazırlıq səviyyəsi daim diqqət mərkəzində olmalıdır.

Vətən torpağını azad etmək üçün, gənc nəslin qarşısında necə çətin, məsuliyyətli bir vəzifə durduğunu görürük. İstisnasız olaraq, hər bir gənc Vətənimizin müdafiəsinə hazır olmalıdır. Bunu Vətən, millətimiz, işğal altında qalan ata-baba yurdumız, ulularımızın ruhu tələb edir.



Avropalılar öz milli örnəkləri ilə bərabər, gənclərin fiziki və mənəvi cəhətdən formalaşmasında əsasən fiziki hərəkətlərin böyük əhəmiyyətə malik olduğuna da xüsusi diqqət yetirirlər. Yeri gəlmişkən qeyd edək ki, Amerikada və Avropanın bir sıra ölkələrində qəbul imtahanlarına fiziki hazırlıq normativləri salınıb. Ona görə də həmin ölkələrdə valideynlər övladlarının erkən yaşlarından başlayaraq idmanla məşğul olmasının qayğısına qalırlar. Bu da idmanla məşğul olanların sayının çoxalmasına səbəb olur. Bu ölkələrdə əhali parklarda, stadionlarda, zallarda və b. yerlədə sərbəst məşq edirlər.

Bir sıra Avropa ölkələrində ali məktəblərin tələbələri hər semestr fiziki hazırlığa aid olan normativlərdən də imtahan verirlər. Normativlərini yerinə yetirə bilməyən gənclər əlavə pul ödəyirlər. Bu proses ali məktəbi qutarana qədər davam edir. Bu ali məktəblərin hər birində müxtəlif idman növləri üzrə zallar və futbol meydançaları vardır. Avropalı tələbələr ali məktəblərin idman klublarında məşğələlərin vaxtlarını özləri sərbəst seçirlər.

Şimal qonşumuz Rusiyada da idmanın inkişafına xüsusu diqqətlə yanaşılır və idmanın bütün sahələrində tədris illərinin və dərs saatlarının miqdarı artırılıb. Bu, ölkədə gənclərin fiziki hazırlığı və idmanın kütləviliyini təmin etmiş olur.

Azərbaycanda məşhur şəxiyyətlərimizin əksəriyyəti idmanla məşğul olub və uğur qazanıb. Dahi dirijor Niyazi, bəstəkar olmaqla bərabər, həm də ağırlıqqaldırma üzrə Azərbaycan çempionu idi. Akademik, ATU–nun rektoru, millət vəkili Əhliman Əmiraslanov voleybol, mərhum akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov voleybol və mərhum akademik Tofiq İsmaylov futbol, Azərbaycan İdman Akademiyasının rektoru, millət vəkili Ağacan Əbiyev boks növündə güclərinin sınayıblar. Bir çox başqa görkəmli şəxiyyətlərin də adlarını bu siyahıya əlavə etmək olardı. Gənclərimiz belə insanlara oxşamağa çalışmalı, onları ideal kimi qəbul etməli, cəmiyyətdə layiqli yer tutmaq üçün, onların həyat və tdman fəaliyyətlərindən nümunə götürməlidirlər.

Bir şeyi unutmaq olmaz ki, gənclərin fiziki hazırlığının və milli ruhunun yüksək olması, hər mənada, dövlətimizin xeyrinədir. Fərqi yoxdur, həmin gənc idmançıdır, hərbiçidir, yoxsa fəhlə. Təsiredici amillərdən geniş istifadə edilməsi də gənclər üçün çox faydalıdır. Çünki fiziki hazırlıq onların sağlamlığının artmasına kömək edir, gənclərə əlavə stimul yaradır, idmana olan marağı artırır, məşğələlərin keyfiyyətinə də müsbət təsir göstərir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, gənclərimizin sağlam və milli ruhda tərbiyə olunması, iradəli, mərd, vətənpərvər və cəsur böyüməsində orta və ali məktəblərdə idmanın tədrisinin rolu böyükdür. Şagirdlərin və tələbələrin müxtəlif fənn dərsləri ilə yüklənməsi onları məcbur edir ki, vaxtlarının çox hissəsini bu fənlərin öyrənilməsinə sərf etsinlər. Əgər onlar icbarı qaydada idman klublarının məşğələlərinə cəlb edilməsələr, könüllü şəkildə idmana maraq göstərməyə vaxtları və həvəsləri olmayacaq. Məhz bu səbəbdən də, ölkəmizdə təhsil müəssisələrinin hamısında gənclərin fiziki hazırlığı mühüm və əsas amillərdən biri sayılmalıdır. Orta və ali məktəblərdə tez-tez müxtəlif idman yarışlarının keçirilməsi yeniyetmələrin və gənclərin idmana olan maraqlarını daha da artırar. Gənclər idmanla nə qədər çox məşğul olsalar, bir o qədər də sağlam ruhda böyüyər, mənfi xüsusiyyətlərdən, pis vərdişlərdən uzaqlaşarlar. Gənclər həm də idmanla ona görə məşğul olmalıdırlar ki, yaşlaşanda sağlam olsunlar.

İdman və bədən tərbiyəsinin tədrisi sahəsində çalışan bir pedaqoq kimi hesab edirik ki, gənclərimizin fiziki hazırlığının yüksəldilməsinə, onların sağlamlığının möhkəmləndirilməsinə yönələn tədbirlər müəyyən edilməli, müəyyən müddət ərzində sınaqdan keçirildikdən və onların nəticələri ətraflı şəkildə araşdırıldıqdan sonra tətbiq olunmalıdır. Bütün bunlar gənclərin həyatında idmanın rolunu müəyyən edir və onun mahiyyətinin yüksək olmasını göstərir.

Bir azərbaycanlı kimi, bizi sevindirən odur ki, respublikamızın əksər bölgələrində Olimpiya idman kompleksləri, idman zalları yaradılıb. İnsanların istirahət etdikləri yerlərdə də idman etmək üçün hər cür şərait mövcuddur. Bakıda Milli Parkda quraşdırılan idman qurğuları buna əyani sübutdur. Gənclərin sağlam və milli ruhda tərbiyə olunmasına hamımız dəstək olmalıyıq. Çünki hər bir gəncin həyatının əsas mənası sağlam və xoşbəxt olmaq, cəmiyyətdə özünə layiqli yer tutmaqdır. Dövlətimizin qarşısında duran vəzifələrdən ən önəmlisi sağlam gənclər yetişdirməkdir. Hər birimiz dövlətimizin prioritet saydığı bu məsələyə öz əməlimizlə tohfə verməliyik. Bizim hər birimizin vaxtaşırı fiziki hərəkətlər etməsinə ciddi ehtiyac vardır.

**Zakir MƏMMƏDOV,**
*SSRİ idman ustası,*
*Azərbaycan Respublikasının Əməkdar məşqçisi,*
*professor*

*Sərvər Nəriman oğlu Alimetov-75*

# Məhsuldar alim, yorulmaz müəllim

**Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru, “Qızıl Qələm” media və “İbn Sina” beynəlxalq mükafatları laureatı Sərvər Nəriman oğlu Alimetovun 75 yaşı tamam oldu.**

S.Alimetov 1940-cı ilin martın 12-də Azərbaycan Respublikası Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. O, 1946-cı ildə Düztahir kənd orta məktəbinə daxil olmuş və buranı 1956-cı ildə qızıl medalla bitirmişdir. Sözügedən məktəb 1946-cı ildə Düztahir kəndi və onun ətraf kəndləri üçün, İkinci Dünya və Böyük Vətən müharibələri qurtardıqdan sonra açılmış və kənd əhalisi arasında “kənd akademiyası” adlanırdı. Burada o zaman tətbiq olunan vahid proqressiv proqram üzrə qabaqcıl fənlər yüksək ixtisaslı müəllimlər tərəfindən tədris olunurdu, ciddi nizam-intizam gözlənilir, təlim-tərbiyə aparılır, patriotluq aşılanır və daim canlı həyat ruhu hiss olunurdu. Hər tərəfli olaraq, orta təhsil biliklərinə dərindən nail olmuş S.Alimetov 1956-cı ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuşdur. 1962-ci ildə ali təhsilini əla qiymətlərlə başa vurduqdan sonra, onun Azərbaycan Tibb Universitetində, uşaq cərrahiyəsi kafedrasında saxlanılması haqqında Elmi Şuranın qərarına baxmayaraq, o, kəndə təyinat götürmüşdür.

1962-1970-ci illərdə Azərbaycan Respublikası Qusar rayonu Şirvanovka Regional Xəstəxanasında baş həkim vəzifəsində çalışmışdır. Bu xəstəxana Nabran, Yalama, Şirvanovka, Samur qəsəbəsi olmaqla Azərbaycan-Dağıstan sərhədi boyunca 20-dən çox kənd və obalara tibbi xidməti çox istiqamətli şəkildə göstərirdi. Həmin illərdə əhali arasında müxtəlif parazitar və infeksiya mənşəli xəstəliklər, yüksək uşaq ölümü göstəricisi, səhiyyə-maarif işinin yoxluğu xüsusilə baş alıb gedirdi. S.Alimetovun 7 il ərzində bu sahədə peşəkar kollektiv və əhalinin fəallığı ilə birlikdə göstərdiyi gərgin təşkilatçılıq, səhiyyə, diaqnostika, müalicə və profilaktik əməyi sayəsində, yüksək nəticələr əldə edilmiş, uşaq ölümü xeyli aşağı endirilmiş, Nabran turistik bazasında tibbi xidmət yaxşılaşdırılmışdır.

1970-ci ildə səhiyyə sahəsində böyük praktik təcrübə qazanmış S.Alimetov Azərbaycan Tibb İnstitutunun, akademik C.Abdullayevin rəhbərlik etdiyi hospital terapiya kagedrasına aspiranturaya çox gərgin konkurs üzrə daxil olmuşdur.

S.Alimetov 1972-ci ildə Azərbaycan Tibb İnstitutunda “Öd kisəsi və öd-çıxarıcı yolların xəstəliklərində su və elektrolit mübadiləsinin dinamikası” mövzusunda, tibb elmləri namizədi dissertasiyasını, vaxtından erkən olmaqla müvəffəqiyyətlə müdafiə etmişdir. Bu dissertasiya üzrə duodenal zondun modifikasiyasını və öddə elektrolitlərin alovlu fotometr vasitəsilə müəyyən edilməsi üsulunu işləyib hazırlamışdır.

Tibb elmləri namizədi dissertasiyasının müdafiəsindən sonra, aspiranturanı vaxtından əvvəl müvəffəqiyyətlə başa vurmuş kadr kimi o, Azərbaycan Tibb İnstitutunun hospital terapiya kafedrasında assistent, müxtəlif illərdə pediatriya fakültəsində elmi işlər üzrə dekan müavini, internatura şöbəsinin müdiri, Azərbaycan Respublikası Tibb-Məhkəmə Ekspertizasında terapevt-ekspert, Səhiyyə maarif müşaviri, fakültə partiya təşkilatının katibi və sair məsul vəzifələrdə işləmişdir. Onu da qeyd edək ki, o illərdə dekan ilə partiya təşkilatı katibi bərabər yüklü vəzifələr sayılırdı. 1976-cı ildə Azərbaycan Tibb İnstitutu daxili xəstəliklər kafedrasına dosent vəzifəsinə seçilmişdir. 1977-1980-ci illərdə xüsusi xarici ezamiyyət üzrə, Afrika qitəsində Əlcəzairdə, 3 il həkim vəzifəsində, Benisaf mərkəzi çox profilli xəstəxanada işləmişdir. Bu müddət ərzində Əlcəzair, Mərakeş, Tunis, Macarıstan, Bolqarıstan, Rusiya, Yaponiya və digər ölkələrdə keçirilmiş elmi konfrans, konqress və simpoziumlarda fəal iştirak etmişdir.



S.Alimetov 1998-ci ildə “Xronik ürək çatışmazlığında hemodinamik və homeostaz pozğunluqlarının xüsusiyyətləri və korreksiyası” mövzusunda, tibb elmləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. Burada ürək çatışmazlığına düçar olmuş xəstələrdə bəzi toksiki mikroelementlərin çoxluğu sayəsində toksikozlar, bradikardiya, hipotoniya, refrakter vəziyyətlərdə rekompensasiya üsullarını işləyib hazırlamışdır; yeni klinik əlamət, Alimetov simptomu adı altında təsvir edilmişdir (“Tibb terminləri və klinik simptomlar”). 1971-ci ildən Azərbaycan və Rusiya terapevtlər, kardioloqlar cəmiyyətlərinin üzvüdür.

Türkiyə, Rusiya, Orta Asiya, Avropa və Amerika ölkələrində çap olunmuş onlarla elmi məqalənin, 300-dən çox elmi işin, 50-dən çox kitabın, o cümlədən 20-dən çox dərsliyin, elmi-praktik vəsaitin, monoqrafiyanın, metodik tövsiyənin, 7 səmərələşdirici təklifin müəllifidir. Azərbaycan Tibb Universitetində fəaliyyət göstərdiyi 45 ilin ərzində yüzlərlə tələbə, gənc əməkdaş və dissertantların elmi işlərinin yerinə yetirilməsində və formalaşmasında onun yaxından köməyi olmuşdur.

S.Alimetov “Qızıl Qələm” media və “İbn Sina” beynəlxalq mükafatları laureatıdır, 2005-ci ildə ilin ən yaxşı tədqiqatçı alimi sayılmışdır.

Böyük vətənpərvər, gözəl insan və valideyn, dərin bilikli və bacarıqlı terapevt və kardioloq, məhsuldar alim və yorulmaz müəllim S.Alimetov hazırda Azərbaycan Tibb Universitetində Daxili xəstəliklər kafedrasında yaradıcılıq işini davam etdirməkdədir.

**Kafedranın əməkdaşları**

*Yeni nəşrlər*

**Fərəhli haldır ki, Azərbaycan dilində ilk dəfə “Ortodontiya” dərsliyi işıq üzü gördü.**

# «ORTODONTİYA» FƏNNİNDƏN DİLİMİZDƏ İLK DƏRSLİK

Dərslik Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsində ortodontiya fənnin tədris proqramına uyğun olaraq yazılmışdır.

Ortodontiya kliniki təbabətin bir sahəsi olub, əsas məqsədi dişlərin, çənələrin, üz skeletinin inkişaf və böyüməsi, diş-çənə anomaliyalarının etiologiyası, patogenezi, diaqnostikası, profilaktika və müalicə üsullarını öyrənməklə yanaşı, müasir ortodontik aparatlar və avadanlıqlardan istifadə etməklə yeni müalicə üsulları işləyib hazırlamaqdan ibarətdir. “Ortodontiya” termini yunan dilində orthos (düz) və odontos (diş) söz birləşməsi olub düz diş mənasını verir. Ortodontiyanın tədqiqat obyektinə yuxarı və aşağı diş qövslərində dişlərin düzülüşü, qövsün forması, diş qövslərinin qarşılıqlı münasibəti, əng və çənə sümüklərinin kəllə skeletinə görə vəziyyəti və s. aiddir.

Ortodontiya elmi son illərdə sürətli inkişaf mərhələsi keçmişdir. Stomatologiya elminin bu vacib sahəsində istifadə olunan diaqnostika və müalicə üsulları daha da təkmilləşdirilmiş, diş-çənə anomaliyalarının etiologiya və patogenezinin öyrənilməsində, ortodontik və kompleks müalicəyə ehtiyacı olan xəstəlik qruplarının ayırd edilməsində böyük nailiyyətlər əldə edilmişdir. Yeni materialların və müasir müalicə texnologiyalarının klinikada tətbiqi ortodontik müalicədə daha effektli və davamlı nəticələrin əldə edilməsinə zəmin yaradır.

Azərbaycan Tibb Universitetinin ortopedik stomatologiya kafedrasının professoru Z.Qarayev, uşaq stomatologiyası kafedrasının müdiri, professor R.Əliyeva və tibb üzrə fəlsəfə doktoru, dosent Z.Novruzovun nəşr etdirdikləri “Ortodontiya” fənnindən dərslik ortodontiya fənninin tədrisinin bütün aspektlərini özündə əks etdirən fundamental dərslikdir. Dərsliyin məqsədi tələbələrə ortodontiyada diaqnostikanın əsaslarını dərk etməyi, diaqnozu əsaslandırmağı, xəstənin müalicə planını müəyyənləşdirməyi, müxtəlif profilli həkimlərlə məsləhət aparmağı və müasir ortodontik aparatlarla diş-çənə anomaliyalarını müalicə etməyi öyrətməkdir. Tam əsaslandırılmış klinik və xüsusi müayinə üsullarını seçmək, ortodontik müalicənin gedişi və xəstəyə qulluğu düzgün planlaşdırmaq ortodontik müalicəni müvəffəqiyyətlə başa çatdırmaq üçün vacib şərtdir.

Dərsliyin əsas özəlliklərindən biri də müəlliflərin müşahidələrini əks etdirən çoxsaylı rəngli şəkillər, klinik situasiyalar və təcrübi vərdişlərə verilən üstünlükdür. Dərslik 13 fəsil, 195 şəkil, 11 cədvəl olmaqla 17 çap vərəqindən ibarətdir.

Dərslik ortodontiya elminin tarixi, böyümə və inkişaf, üz-çənə sisteminin funksional anatomiyası, ortodontiyada müasir müayinə üsulları, diş-çənə sistemi anomaliyalarının etiologiyası, patogenezi, diaqnostikası, profilaktikası və ortodontik müalicə üsullarını əhatə edir.

Azərbaycan Tibb Universitetində təhsil alan tələbələr üçün Azərbaycan dilində ortodontiya dərsliyinin olmaması ciddi çətinliklər yaradırdı. Bu baxımdan stomatologiya fakültəsində tədris




olunan ortodontiya fənninin proqramını tam əhatə edən dərsliyə böyük ehtiyac yaranmışdır. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə Z.Qarayev, R.Əliyeva və Z.Novruzovun birgə müəllifliyi ilə yazılan “Ortodontiya” dərsliyi Azərbaycan Tibb Universitetinin və digər ali tibb təhsili müəssisələrinin stomatologiya fakültəsinin tələbələri üçün çox faydalı olacaqdır. Kitabdan həmçinin rezidentlər və praktik həkimlər də yararlana bilərlər.

**Elxan Kərimov,**
*Ortopedik stomatologiya kafedrasının müdiri, ə.e.x. professor*

# “Bir qadın, bir uşaq” təşəbbüsü davam edir



BMT-nin Nyu-Yorkdakı qərargahında “Bir qadın, bir uşaq” təşəbbüsün həyata keçirilməsi ilə bağlı toplantı keçirilib.

“Bir qadın, bir uşaq” kampaniyası uşaq və qadın sağlamlığının qlobal mühafizəsi strategiyası çərçivəsində BMT-nin Baş katibi Pan Gi Mun tərəfindən elan olunub. Təşəbbüs 2010-cu ildə BMT Baş Məclisinin sessiyasında təsdiq olunub. Onun məqsədi tibbi xidmətlərin göstərilməsi sisteminin yaxşılaşdırılması, bu sahəyə ayrılan maliyyənin artırılması və siyasi iradənin gücləndirilməsi yolu ilə beş yaşına qədər daha 15 milyon uşağın, 570 min qadının hamiləlik və doğuş zamanı ölümünün qarşısını almaqdır.

“Beş ildən sonra da bu tərəfdaşlıq davam edir və böyüyür”, - Pan Gi Mun deyib. O vurğulayıb ki, 2010-cu ildən başlanan bu təşəbbüsə dünyanın bir çox ölkələrindən 300 tərəfdaş qoşulub. Onlar qadınların və uşaqların sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş 400 konkret öhdəlik götürüblər.

Bu təşəbbüs sayəsində beş il ərzində 2,4 milyon qadın və uşağın həyatını xilas etmək mümkün olub. Uşaqlar ishal əleyhinə dərmanlarla təmin olunub, onların çoxu düzgün qida almağa başlayıblar. Kampaniya əsasən ana südünün faydası haqqında əhalinin məlumatlandırılması üzrə aparılıb. Bu gün qadınların əksəriyyəti tibb müəssisələrində uşaq doğur, o cümlədən qadınlara və qızlara bu müəssisələrdə tibbi xidmət göstərilir.

## Yer kürəsi bu sistemdə Günəşə ən yaxın üçüncü planetdir

**Məlum olduğu kimi Yer planeti Günəş sisteminin bir hissəsidir. Bu sistem kainatdakı digər ulduzlara görə orta böyüklükdə olan Günəşin ətrafında dövr edən 8 planetdən və onların 54 peykindən ibarətdir. Yer kürəsi bu sistemdə Günəşə ən yaxın üçüncü planetdir.**



Günəşin diametri Yerin diametrinin 103 misli qədərdir. Bunu bir bənzətməylə açıqlayaq. Əgər diametri 12.200 km olan Yer kürəsini üzüm dənəsi böyüklüyünə gətirsək, Günəş də futbol topunun iki misli böyüklüyündə olan kürə halına gələr. Amma daha maraqlı olan aradakı məsafədir. Həqiqətə uyğun model qurmaq üçün üzüm dənəsi böyüklüyündəki Dünya ilə top böyüklüyündəki Günəşin arasını təxminən 280 metr etmək lazımdır. Günəş sisteminin lap xaricində olan planetləri isə kilometrlərlə uzağa aparmaq lazım olacaq.

Ancaq bu qədər nəhəng ölçüyə sahib Günəş sistemi yerləşdiyi Südyolu qalaktikasına nisbətdə olduqca kiçik ölçüdədir. Çünki Südyolu qalaktikasında Günəş kimi və ondan daha böyük təxminən 250 milyard ulduz var. Bu ulduzlardan Günəşə ən yaxını olanı Alfa Sentavradır (Alpha Centauri). Əgər Alfa Sentavranın bayaqkı nisbətə, yəni Dünyanın üzüm dənəsi böyüklüyündə olduğu və Günəş ilə Dünya nın arasının 280 metr olduğu nisbətə yerləşdirsək, onu Günəşdən 78 min kilometr uzağa yerləşdirməyimiz lazımdır!

Modeli bir az da kiçildək. Dünyanı gözlə çətin görülən bir toz zərrəsi edək. Onda Günəş qoz böyüklüyündə olub Dünyaya üç metr məsafədə yerləşəcək. Bu halda Alfa Sentavra Günəşdən 640 km (bəli, kilometr) uzaqda olmalıdır.

Südyolu qalaktikasında aralarında bu cür nəhəng məsafələr olan 250 milyard ulduz mövcuddur. Spiral şəklindəki bu qalaktikanın qollarının birində bizim Günəşimiz yerləşir.

Ancaq maraqlısı odur ki, Südyolu qalaktikası da kosmosa nisbətən çox "kiçik" yer tutur. Çünki kosmosda təxminən 200 milyarda qədər başqa qalaktikalar da var. Bu qalaktikaların arasındakı boşluqlar isə Günəş ilə Alfa Sentavra arasındakı boşluğun milyonlarla misli qədərdir.

Corc Qrinşteyn (George Greenstein) bu heyrətamiz böyüklüklə bağlı "The Symbiotic Universe" (Simbiyotik Kainat) adlı kitabında belə yazır: "Əgər ulduzlar bir-birlərinə bir az daha yaxın olsaydılar, astrofizika çox da fərqli olmazdı. Ulduzlarda, nebulalarda və digər göy cisimlərində davam edən təməl fiziki proseslərdə heç bir dəyişiklik olmazdı. Uzaq məsafədən baxdıqda qalaktikamızın görünüşü də indikiylə eyni olardı. Gecə çəmənlər üzərinə uzanıb izlədiyim səmada çox sayda ulduz görünərdi. Amma üzr istəyirəm, bəli; bir fərq daha olardı: Bu mənzərəni seyr edən "mən" olmazdım… Kosmosdakı bu nəhəng boşluq, bizim var olmağımızın vacib şərtidir." (The Symbiotic Universe. s. 21)

Qrinşteyn bunun səbəbini də açıqlayır; kosmosdakı böyük boşluqlar, bəzi fiziki dəyişikliklərin insan həyatına ən uyğun şəkildə formalaşmasını təmin edir. Eyni zamanda Dünyanın kosmos boşluğunda hərəkət edən nəhəng göy cisimləri ilə toqquşmasına manəə olan faktor da kainatdakı göy cisimlərinin arasında bu cür böyük boşluqların olmasıdır.

Kainatın böyüklüyü və sahib olduğu həssas tarazlıqlar, üstün yaratma sənətinin açıq-aşkar dəlilləridir. Müasir elmin gəldiyi bu nəticə Quranda bundan 14 əsr əvvəl xəbər verilmiş həqiqətin təsdiqindən ibarətdir.

*"Doğrudan da, göyləri və yeri altı gündə yaradan, sonra Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən Odur. Əslində yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır".* **("Əraf" surəsi, 54)**

# Namiq Əbdülsəməd oğlu Abbasov



**Bu günlərdə Ağ ciyər xəstəlikləri kafedrasına ağır itki üz vermişdir. Kafedranın müdiri, əməkdar müəllim, professor Namiq Əbdülsəməd oğlu Abbasov ömrünün 74 ilində vəfat etmişdir.**

N.Abbasov 17 iyun 1941-ci ildə Bakı şəhərində, qulluqçu ailəsində anadan olmuş, 1949-cu ildə Bakı şəhəri, Oktyabr rayonu 17 saylı məktəbin 1-ci sinfinə qəbul olaraq bu məktəbi 1959-cu ildə bitirmişdir.

O, 1959-cu ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olub, təhsilini 1965-ci ildə başa çatdırmışdır. O, Tibb İnstitutunu bitirdikdən sonra əvvəlcə Yardımlı rayonunda birləşmiş rayon xəstəxanasında, sonra isə Bakı şəhəri 4 №-li tibbi səhiyyə hissəsində terapevt vəzifəsində çalışmışdır. 1966-ci ilin noyabr ayında N.Abbasov Elmi Tədqiqat Kliniki və Eksperimental Təbabət İnstitutunun anesteziologiya-reanimatologiya laboratoriyasında kiçik elmi işçi vəzifəsinə seçilərək, burada öz əmək fəaliyyətini davam etdirmişdir. N.Abbasov 4 illik fəaliyyəti ərzində "Müxtəlif cərrahi müdaxilələrdən sonrakı dövrdə xarici tənəffüs funksiyasının vəziyyəti" adlı namizədlik dissertasiyasını yekunlaşdırmış və onu 1973-cü ildə müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. O, 1973-1975-ci illərdə Elmi Tədqiqat Vərəm institutunda baş elmi işçi vəzifəsində çalışmış, klinikada tənəffüs və ürək çatışmazlığı olan xəstələrin müalicəsi ilə məşğul olmuşdur. 1975-ci ildə elmi pedaqoji fəaliyyətə başlayaraq həmin ilin avqust ayından 1994-cü ilin noyabr ayının sonuna kimi o, N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin ftiziopulmonologiya kafedrasında assistent vəzifəsində çalışmışdır. N.Abbasov 1992-ci ildə Kiyev şəhərində, Ukrayna Prezidenti yanında Elmlər Akademiyasının Döş cərrahiyyəsi və Vərəm İnstitutunda "Exokardioqrafik müayinə vasitəsilə ağ ciyər ürəyi olan vərəmli xəstələrdə ürəyin yığılma qabiliyyətinin və ağciyər hipertenziyasının diaqnostikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və tibb elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. 1994-cü ilin noybr ayının sonunda Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının qərarına əsasən N.Abbasov müsabiqə yolu ilə ftiziopulmonologiya kafedrasının professoru vəzifəsinə seçilmiş, 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən professor elmi adı təsdiq edilmişdir. İşlədiyi müddət ərzində 120 elmi əsəri çap edilmişdir. Bu işlərdən 20-si doktorluq dissertasiyasının mövzusu üzrə olmuş, 8 metodik vəsaitin və 4 kitabın müəllifidir. Namiq müəllimin 5 dissertantı vardır ki, bunlardan iki nəfər dissertant müdafiə etmiş və tibb üzrə fəlsəfə doktoru elmi adına layiq görülmüşdür, digər üç iş üzrə isə tədqiqat davam etdirilir. Azərbaycan Prezidentinin 20 sentyabr 2010-cu il tarixli sərəncamı ilə Namiq Abbasova əməkdar müəllim fəxri adı verilmişdir.

N.Abbasov tənəffüs və ürək damar xəstəliklərinin diaqnostikası və müalicəsi metodlarına mükəmməl yiyələnmiş bir mütəxəssis idi. O, ali məktəb müəllimi və kafedra müdiri kimi kollektivə və tələbələrə qarşı tələbkarlığı və prinsipiallığı ilə seçilirdi. Namiq müəllim həssas və təvəzökar bir insan idi.

N.Abbasovun 3 övladı var, hər üç övladı ali təhsillidir. Oğlu tarix üzrə fəlsəfə doktorudur, qızları isə dövlət qulluqçularıdır.

Ağ ciyər xəstəlikləri kafedrasının əməkdaşları Namiq müəllimin vəfatından kədərləndiklərini bildirilər və onun ailəsinə dərin hüznlə baş sağlığı verirlər.

**Allah rəhmət eləsin!**

*Ağ ciyər xəstəlikləri kafedrasının əməkdaşları*

# Novruz gəlir, yaz gəlir...

**Novruz - bir bayram kimi baharın gəlməsi münasibətilə geniş miqyasda qeyd olunur. Novruz Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20, 21, 22 də) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirir, onu yeni ilin başlanğıcı kimi bayram edirlər. Qədim zamanlardan başlayaraq İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi başqa şərq xalqları ilə yanaşı, azərbaycanlılar da baharın - yeni ilin gəlişini şənliklərlə qarşılayırdılar.**






Təbiətin, həyatın oyanması Novruzdan başlanır. İnsanlar hələ bayrama bir ay qalmışdan onu qeyd etməyə başlayırlar. Belə ki, hər həftənin ikinci günləri Su, Od, Torpaq və Yel (ilaxır) çərşənbələri qeyd olunur.

Alimlərin fikrincə, bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmaların bir çoxunda Novruz bayramı Zərdüşt peyğəmbərin yaşadığı dövrlə bağlanır. Bayramın yaşının 5000 il bundan əvvələ getdiyi ehtimal edilir. XI əsr mənbələrindən olan Nizamülmülk "Siyasətnamə" əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs edib. Novruzun gəlişi klassik şərq, o cümlədən, Azərbaycan poeziyasında geniş yayılmış "bahariyyə" adlı lirik şeirlərdə də təsvir və tərənnüm edilir. İslam xadimləri bu bayrama həmişə dini rəng verməyə çalışırlar. Hətta bəzi din xadimləri belə bir fərziyyə irəli sürmüşlər ki, Novruz bayramı guya IV xəlifə Əlinin hakimiyyətə (656-661) gəldiyi günlə əlaqədardır. Halbuki o, iyul ayında hakimiyyətə gəlmiş, Novruz isə yazda bayram edilir. Əslində, xalqın bayramla əlaqədar keçirdiyi mərasimlər heç bir dini ehkamlar ilə bağlı deyildi. Əksər xalqlar, o cümlədən azərbaycanlılar bahar bayramının əsl mahiyyətindən doğan bir sıra adət-ənənələri, oyunları indiyədək saxlamışlar. Novruz -bahar bayramı- qədim xalq bayramı hesab olunur. Ona farsca- Nou ruz, özbəkcə Navruz, türkməncə Nouvruz, qazaxca Naurız, qırğızca Nooruz, türkcə Nevruz, Krım türkcəsi ilə Navrez deyirlər.

Novruzu qeyd edərkən kəndlilər təzə ilin necə keçməyini: quru və yaxud yağıntılı, məhsuldarlığın dərəcəsini təyin edirdilər. Ənənəyə görə Novruzun birinci gününü - yaz, ikincini - yay, üçüncünü - payız, dördüncü gününü isə - qış sayırlar. Əgər birinci gün küləksiz və yağmursuz olarsa, deməli bu yaz kənd təsərrüfatı işləri üçün əlverişli olacaq. Əksinə yağmurlu, külək olsa, deməli bütün yaz belə olacaq.

Qalan üç günlərdə də yayın, payızın və qışın necə olacağı təyin olunurdu.

qadın.az

# Ailədə məhəbbət necə yaranır?

**Həyat yoldaşınıza hörmət edin. Həyat yoşdaşınızı əziz tutun. Xanımların əziz olmağa həmişə ehtiyacları vardır. Bu, həyat yoldaşları üçün birinci vəzifə olmalıdır. Yəni, elə iş görməlidir ki, xanımı onu sevdiyini bilsin.**



Kişilər isə həmişə xanımları tərəfindən hörmət edilməyə ehtiyac duyarlar. Evə gələn zaman istəyirlər ki, ən azı bir nəfər bu həyatda onun ləyaqətli bir insan olduğunu qəbul etsin. O zaman ki, əriniz evə gəlir, telefonu söndürüb, onu qarşılamağa gedin.

Bir-birinizlə yaxşı dost kimi rəftar edin.

Ərlə arvad gərək bir-birinin dostu olsun. Əsl dostluq budur ki, iki tərəf qarşı tərəfin hiss və ehtiyaclarına ehtiramla yanaşsın. Yəni, hər nə sənin üçün mühümdürsə, mənim üçün də mühümdür. Həyat yoldaşınız həqiqi bir dostu olduğunu bilməlidir.

**Dörd qızıl əməl.**

**Dörd qızıl əməli yadınızda saxlayın:** qulaq asmaq, razılaşmaq, qurucu olmaq, təşəkkür etmək.

**Qulaq asmaq:** Bu əməl problemləri həll etmək üçün mühümdür. Həyat yoldaşınıza icazə verin ki, sözünü axıra qədər desin və sözünü ortada kəsməyin. Sonra dediklərini təkrar edin. Bu qarşı tərəfi əmin edəcəkdir ki, sözlərinə dəyər verilir.

**Razılaşmaq:** Problemlərinizi elə həll edin ki, iki tərəf də razı qalsın. Sizlərdən heç biri məcbur qaldığı üçün qarşı tərəfin rəyini qəbul etməməlidir. Qəbul etdiyiniz rəy hər iki tərəfin razılığı ilə olmalıdır.

**Qurucu olun:** Əgər qarşı tərəfə ruhi zərbə vurmusunuzsa, gərək bu qəlb sındırmanı aradan qaldırasınız. Gərək qurucu olasınız. Qəzəb və əsəbilikdən uzaq olun. Çünki qəzəb, kin və küdurəti artırar.

**Təşəkkür edin:** Heç bir zaman lazımlı şəkildə həyat yoldaşınıza təşəkkür edə bilməzsiniz. Çalışın ki, sizin üçün gördüyü hər bir işə görə təşəkkür edəsiniz.

Həyat yoldaşınız sizin üçün birinci sırada durmalıdır. Valideynləriniz, övladlarınız, dostlarınız, qohumlarınız sonrakı sırada olmalıdır. Ailə divarlarınızı möhkəm edin ki, evliliyə dəyər verdiyinizi hiss edə bilsin. Heç bir zaman icazə verməyin ki, bu divar zəifləsin.

Valideynlərinizin, övladlarınızın ehtiyacını ödəməkdən əvvəl həyat yoldaşınızın ehtiyacını ödəyin. Bir-birinizə müəyyən vaxt ayırın.

Hər gün həyat yoldaşınızı sevindirməyə çalışın. Bunu bir gül, bir söz, bir hədiyyə, bir təbəssümlə edə bilərsiniz. Bu işi hər gün təkrar etməyə çalışın.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs, $142^{a}$ qrup tələbəsi Məmmədli Aygül Yaşar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Qaçay Əli oğluna 1986-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $295^{b}$ qrup tələbəsi Musa Albuhisinin adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $235^{a}$ qrup tələbəsi İbişzadə Aysel Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $141^{b}$ qrup tələbəsi Əsədli Azad Azər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $9^{b}$ qrup tələbəsi Sona Noshirvan Hosein qızına Azərbaycan Resbuplikasının ərazisində müvəqqəti yaşamağa görə verilən icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $340^{b}$ qrup tələbəsi Qasımov Anar Zaman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Azərbaycanlı həkimlər Tbilisidə keçirilən treninqdə iştirak ediblər



Tbilisidə yoluxucu xəstəliklərin vaxtında aşkarlanması, qarşısının alınması və profilaktikasına həsr olunmuş treninq keçirilib.

Almaniyanın "EUROİMMUN" şirkətinin təşkilatçılığı ilə keçirilən, Azərbaycan həkimlərinin də qatıldığı treninqdə əsasən "Eurostar 3" mikroskopu ilə işləmə, bu yeni texniki avadanlığın köməyi ilə yoluxucu xəstəliklərin və virusların dəqiq müayinəsi, diaqnostikası barədə məlumat verilib.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Respublika Taun Əleyhinə Stansiyasının həkimi Fərhad Həsənov deyib: "Treninqdə əsasən "Eurostar 3" (Lummersentni mikroskopu) mikroskopu ilə işləmə metodlarını öyrənirik. Müasir tələblərə cavab verən bu aparat vasitəsilə eyni vaxtda bir neçə analizin cavabını almaq mümkündür. Hazırda istifadədə olan aparatla isə yalnız bir müayinə aparmaq mümkün idi. Yeni mikroskopu bir yerdən başqa yerə daşımaq da çox asandır. Bu təlimdən sonra biz həmkarlarımızla birgə yoluxucu xəstəliklər barədə qarşılıqlı informasiya mübadiləsi aparacağıq və qorxulu xəstəliklərin yayılmasının qarşısının alınması ilə bağlı yeni metod və üsullar üzərində çalışacağıq".

Qeyd edək ki, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları da treninqdə iştirak ediblər.

# Google eynəyinin 2-ci nəsli hazırlanır

**Google Glass kompüterləşmiş eynəyinin ikinci nəslinin sınaq tədarükünə başlanılıb.**



Google internet şirkətinin yaydığı məlumata əsasən bu cihaz eksperimental mərhələdədir və kommersiya istifadəsi üçün nəzərdə tutulmayıb.

2015-ci ilin yanvarında Google internet şirkəti Glass Explorer proqramını dayandırmağa qərar verib. 1500 dollara satılan ağıllı qurğu satışdan çıxarıldı. Bundan sonra yayılmış şaiyələrə əsasən, şirkət sözügedən cihazın birinci versiyasını uğursuz hesab edərək yeni nəsil üzərində məşğul olmağa qərar verib.

Google Glass ağıllı eynəyinin yeni modifikasiyası erkən hazırlanma mərhələsindədir. Cihazın ilk prototipləri Googlenin məhdud tərəfdaş dairəsində nümayiş etdirilib. Kompüterləşmiş eynək və şlem bazarı tədricən genişlənir. İndi sözügedən bazarda Oculus VR (Oculus Rift), Sony (Project Morpheus, SmartEyeglass), Samsung (Gear VR) və Microsoft (HoloLens) kimi şirkətlər mövcuddur. Şaiyələrə görə, Apple da bu bazara daxil olacaq.

# Kahının inanılmaz faydaları

**Kahı göyərti deyil, yarpaq tərəvəzi sayılır. Kahının müxtəlif növləri var - açıq yaşıl tünd - qırmızı rənginə kimi. Kahının bütün növləri olduqca faydalıdır.**

**Kahı bir çox faydalı vitamin və mikroelementlərlə zəngindir. Kahıda A, B qrupu, E, PP,C karotin kimi vitaminlər, kalsium, maqnezium, kalium, fosfor və s. faydalı mikroelementlər var.**

Yaz aylarında insan orqanizmi avitaminozdan əziyyət çəkir. Bu vəziyyətdə kahı kimi zəngin vitamin-mineral mənbəyi bizə çox yaxşı kömək edə bilər.

Kahının tərkibində çox az məhsullarda rast gəlinən fol turşusu da var. Fol turşusu qanyaratma, sinir sistemi üçün çox vacibdir. Hamilə qadınlar üçün bu vitamin ən əsas rollardan birini oynayır. Sübut olunub ki, fol turşusu dölün sinir sistemində qüsurların inkişafının qarşısını alır. Məhz bu səbəbdən qadınlara hələ hamiləliyin planlaşdırılması mərhələsində və sonra hamiləliyin ilk günündən sonuna kimi fol turşusu təyin olunur.

Uşaq əmizdirən analar da kahını daim öz qidalanmasına daxil etməlidir. Belə hesab olunur ki, kahı südün ifrazını artırır.

Kahı təbii liflərlə zəngindir və bu səbəbdən bağırsaqların fəaliyyətinə çox müsbət təsir edir, həzm prosesini yaxşılaşdırır, qəbizliklə mübarizədə kömək edir, orqanizmdən duzları, şlakları, toksinləri, artıq xolesterini və digər ziyanlı maddələri çıxardır.

Kahı həmçinin qanın laxtalanmasını yaxşılaşdırır, anemiya zamanı kömək edir.

Kahı qanda şəkərin səviyyəsinin tənzimlənməsinə kömək edir və bu səbəbdən şəkərli diabet xəstəliyi olan insanlar üçün faydalıdır.

Kahı insanın sinir sisteminə də müsbət təsir göstərir, yuxunu tənzimləyir.

Ağır xəstəlik, əməliyyat keçirmiş insanların qidalanmasında bu faydalı tərəvəz mütləq olmalıdır. İdmançıların qidalanmasına da bu tərəvəzi daim daxil edirlər. Kahı orqanizmin daha tez bərpa olunmasına kömək edir.

Öskürək və bronxit zamanı kahı şirəsi çox yaxşı bəlğəmgətirici təsir edir.

E, A, C kimi antioksidant-vitaminlərlə zəngin olan kahı orqanizmdə gedən qocalma prosesini ləngidir.



Kahı azkalorili məhsuldur və bu səbəbdən artıq çəki ilə mübarizə aparan insanlar kahını müxtəlif salatlarda, buterbrodlarda istifadə edə bilərlər.

Kahını bıçaqla doğramaq tövsiyə edilmir, əllə bölmək lazımdır. Kahını müxtəlif salatlarda istifadə edin. Salatlara mütləq bitki yağı və ya xama əlavə edin. Bu A vitaminin daha yaxşı mənimsənilməsinə kömək edir.

Vitamin və minerallarla zəngin olan kahı müxtəlif kosmetik maskaların tərkibində də istifadə olunur. Belə maskalar dərini nəmləndirir, daha elastik edir, təravətləndirir, cavanlaşdırır. Bu kimi maska hazırlamaq olar: kahı yarpaqları blenderdə əzilir, 1 xörək qaşığı xama əlavə olunur, yaxşı qarışdırılır və təmiz üz dərisinə çəkilir. 20 dəqiqədən sonra maskanı ılıq su ilə yuyulur.

**Ən sadə resept:** kahı yarpaqlarını bir qədər əzin və təmiz üz dərisinə qoyub, 20 dəqiqə uzanın.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 218